# “Mən bir qəhrəman anası kimi Şuşada olmaqdan fərəhlənirəm”



“Şuşanın işğalı dövründə ermənilərin bu şəhərdə törətdikləri dağıntıları, vandalizmi əyani görmək insanı dəhşətə gətirir. Bu cür gözəl şəhərdə baş verən vəhşiliklərin, barbarlığın tayı-bərabəri yoxdur. Düşmən cansız daşlara belə güllə atmaqdan, təbiəti viran qoymaqdan çəkinməyib. Bu vəhşiliklər təkcə Azərbaycan xalqına qarşı deyil, ümumilikdə bəşəriyyətə, insanlığa qarşı törədilmiş bir cinayətdir”.

AZƏRTAC xəbər verir ki, bu sözləri “Azad Həmfikirlər” Gənclərin Maarifləndirilməsi İctimai Birliyinin sədri Samirə Mustafayeva Şuşaya səfəri zamanı bildirib. Vətən müharibəsində Azərbaycan dövlətinin və xalqının bütün dünyaya öz gücünü göstərdiyini, “dəmir yumruq” birliyi ilə haqq və ədalət savaşından qalib çıxdığını qeyd edən S.Mustafayeva hazırda ölkəmizin işğaldan azad edilmiş torpaqlarda bərpa və quruculuq işləri ilə də bütün dünyanın diqqətini cəlb etdiyini bildirib: “Biz fəxr edirik ki, güclü, qalib Azərbaycan xalqının nümayəndələriyik. Şuşanı ziyarət etməkdən hədsiz xoşbəxtəm. Oğlum Kamil Balakişiyev də Şuşanın alınmasında iştirak edib. Mən bir qəhrəman anası kimi də Şuşada olmaqdan fərəhlənirəm. Azərbaycan xalqına ancaq qələbə və zəfər yaraşır”.

---

Azərbaycan.- 2021.- 14 sentyabr.- S.6.